

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 205 (21.357)

21 oktyabr 2015-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin valisi İsmayıl Cabbarzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

İran İslam Respublikasının Şərqi Azərbaycan Vilayətinin valisi İsmayıl Cabbarzadənin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan-İran ikitərəfli münasibətlərinin inkişafı baxımından böyük əhəmiyyət daşıdığını vurğulayan dövlətimizin başçısı səfərin qonaqların ölkəmizlə bir daha yaxından tanış olmaları üçün də yaxşı fürsət yaradacağını qeyd edib. İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin Azərbaycana, özünün isə İran İslam Respublikasına rəsmi səfərlərindən sonra ikitərəfli əlaqələrimizin yeni mərhələyə qədəm qoyduğunu deyən dövlətimizin başçısı ölkələrimizin siyasi, iqtisadi, enerji, nəqliyyat, ticarət, səhiyyə və digər sahələrdə inkişafından məmnunluğunu ifadə edib.

Xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşünü böyük ehtiramla xatırlayan İsmayıl Cabbarzadə hələ o vaxtlar Naxçıvanla çox yaxşı əlaqələrin qurulduğunu vurğulayaraq Azərbaycanın bugünkü inkişafının təməlinin məhz o zamanlar ulu öndər tərəfindən qoyulduğunu məmnunluqla qeyd edib.

## İranın Şərqi Azərbaycan Vilayətinin ostandarı Naxçıvanla tanış olmuşdur

***Oktyabrın 19-da İran İslam Respublikası Şərqi Azərbaycan Vilayətinin ostandarı İsmayıl Cabbarzadə Naxçıvan Muxtar Respublikasına səfəri zamanı muxtar respublikanın təhsil və səhiyyə müəssisələri, eləcə də istehsal imkanları ilə tanış olmuşdur.***





"Naxçıvan" Universiteti ilə tanışlıq zamanı rektor, professor İsmayıl Əliyev ali təhsil ocağı barədə məlumat verərək demişdir ki, universitet üçün müasir təhsil şəraiti yaradılmışdır. 1999-cu ildən fəaliyyət göstərən universitetdə hazırda 4 fakültə, 9 kafedra, 5 şöbə var. Universitetdə təhsilin keyfiyyəti yüksəldilir, tədris zamanı müasir təlim texnologiyalarından istifadə diqqətdə saxlanılır. Universitet şəhərciyinə rektorluq binası, iki tədris korpusu, kitabxana, sosial xidmət mərkəzi, yataqxana, idman və konfrans zalları daxildir. Tədris korpuslarında müasir auditoriyalar, imtahan mərkəzləri, proyektor və elektron lövhə quraşdırılan mühazirə zalları, Heydər Əliyev Dövlətçilik Mərkəzi, coğrafiya, Azərbaycan tarixi, turizm-informasiya kabinələri və nəşriyyat fəaliyyət göstərir.

Şərqi Azərbaycan Vilayətinin ostandarı həmin gün Naxçıvan Biznes Mərkəzində olmuş, muxtar respublikada istehsal olunan məhsullara baxmışdır. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat və sənaye naziri Famil Seyidov bildirmişdir ki, mərkəzin əsas fəaliyyət sahəsi sahibkarların maarifləndirilməsi, iş adamlarına ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar, dünya və ölkə iqtisadiyyatındakı yeniliklər, sahibkarların yeni iş təcrübələri, marketinq fəaliyyəti, reklam işi barədə məlumat verməkdir. Bu gün muxtar respublikada 357 növdə, 1106 çeşiddə məhsul istehsal edilir. Yeni yaradılan müəssisələr əhalinin 336 növdə məhsula olan tələbatını tamamilə yerli istehsal hesabına ödəmək imkanına malikdir. Hazırda Naxçıvan Biznes Mərkəzində 65 sahibkarlıq subyektində istehsal olunan müxtəlif çeşiddə məhsul nümayiş etdirilir.

"AKİ Əczaçılıq Anbarı" MMC və "Nəqşicahan MED" müəssisələri ilə də tanış olan İsmayıl Cabbarzadəyə bu müəssisələr haqqında ətraflı məlumat verilmişdir. Sonra qonaq Duzdağ Fizioterapiya Mərkəzində olmuşdur. Bildirilmişdir ki, Duzdağ şaxtalarında mövcud olan hava şəraiti, buranın quruluşu, dəniz səviyyəsindən yüksəkliyi, temperatur, rütubət, atmosfer təzyiqi və oksigenin faizlə miqdarı müalicənin ideal nəticələr verməsinə şərait yaradır. Bronxial-astma xəstəliklərindən əziyyət çəkənlər burada müalicə olunurlar. Xəstəxanaya dünyanın müxtəlif ölkələrindən xəstələr də müraciət edirlər.

İsmayıl Cabbarzadə Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində də olmuşdur. Universitetin xəstəxana binasında yaradılan şəraitlə tanışlıq zamanı rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali məktəbin strukturu, beynəlxalq əlaqələri, maddi-texniki bazası barədə ətraflı məlumat vermişdir. Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası ilə İranın qonşu vilayətləri arasında əlaqələrin inkişafında elm, təhsil sahəsində tərəfdaşlıq xüsusi əhəmiyyət kəsb edir. Naxçıvan Dövlət Universiteti ilə İran İslam Respublikasının ali məktəbləri arasında əməkdaşlıq vardır. Universitetin Tibb fakültəsində Pediatriya, Tibbi profilaktika, Müalicə işi, Stomatologiya və Əczaçılıq ixtisasları üzrə 326 tələbə təhsil alır. Xəstəxanada tələbələrin seçdikləri ixtisaslar üzrə hərtərəfli bilik və təcrübə qazanması üçün lazımi şərait yaradılmışdır.

Şərqi Azərbaycan Vilayətinin ostandarı İsmayıl Cabbarzadə səfərinin sonunda Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi ilə tanış olmuşdur. Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov demişdir ki, mərkəzdə dünyanın inkişaf etmiş ölkələrinin səhiyyə müəssisələrində istifadə olunan tibbi avadanlıqlar quraşdırılmışdır. Səhiyyə müəssisəsində yaradılan şərait ən ağır cərrahi əməliyyatların aparılmasına imkan verir.

**"Şərq qapısı"**

## Energetiklər peşə bayramlarını qeyd ediblər

***Dünən Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyində energetiklərin peşə bayramı münasibətilə tədbir keçirilmişdir.***



Tədbiri giriş sözü ilə açan agentliyin baş direktoru Yasin Səfərov Naxçıvanda energetika sisteminin inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən danışmışdır. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası əvvəllər elektrik enerjisi ilə Zaqafqaziyanın vahid energetika sistemi və sistemə qoşulan Araz Su Elektrik Stansiyası vasitəsilə təchiz edilirdi. Mənfur ermənilərin düşmənçilik siyasəti nəticəsində 1990-cı ildən etibarən muxtar respublikaya elektrik verilişi dayandırılmış, yalnız Araz Su Elektrik Stansiyasında istehsal edilən 15-20 meqavat gücündə elektrik enerjisi şəbəkələrə ötürülmüşdür.

Həmin dövrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərən ümummilli liderimiz Heydər Əliyevin yorulmaz fəaliyyəti və şəxsi nüfuzu sayəsində qonşu dövlətlərdən elektrik enerjisi alınması təmin edilmişdir.

Bildirilmişdir ki, ölkə Prezidentinin "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2 may 2005-ci il tarixli Sərəncamına uyğun olaraq, muxtar respublikamızda kompleks tədbirlər həyata keçirilmiş, 2006-cı ilin dekabrında ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində ümumi gücü 4,5 meqavat olan su elektrik stansiyası və 2010-cu ilin oktyabr ayında Ordubad rayonu ərazisində Gilançay üzərində gücü 22 meqavat, illik elektrik enerji istehsalı 80 milyon kilovat-saat olan Biləv Su Elektrik Stansiyası, 2014-cü ilin aprel ayında isə ümumi gücü 20,5 meqavat olan "Arpaçay-1" və 1,4 meqavat güclü "Arpaçay-2" Su Elektrik stansiyaları istifadəyə verilmişdir. Bu da nəinki Naxçıvanın elektrik enerjisi ilə təchizatının idxaldan asılılığını aradan qaldırmış, həttta muxtar respublikanın elektrik enerjisi ixrac etməsinə geniş imkanlar açmışdır.

Yasin Səfərov tikintisi davam etdirilən və gələcəkdə tikilməsi nəzərdə tutulan elektrik stansiyaları barədə də məlumat verərək bildirmişdir ki, hazırda Araz çayı üzərində derivasiyatipli 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilir. Həmçinin 14 meqavat gücündə Tivi Su Elektrik Stansiyasının tikintisi məqsədilə layihələndirmə işləri aparılır.

Naxçıvanın əlverişli iqlim və coğrafi şəraiti alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə geniş imkanlar açır. Hazırda bu imkanlardan səmərəli istifadə olunur. Muxtar respublikada nəinki Azərbaycanda, hətta Qafqaz və region ölkələrində ən böyük Günəş elektrik stansiyası inşa olunur. Babək rayonunun Xal-xal kəndində 35 hektarlıq ərazidə tikilən Günəş elektrik stansiyasında ən müasir Günəş panelləri, invertor və transformatorlar quraşdırılır. Stansiyanın gücü 20 meqavat olacaq və burada il ərzində 30 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcəkdir.

2008-2015-ci illər ərzində muxtar respublikada elektrik enerjisindən səmərəli istifadə edilməsi, israfçılığın qarşısının alınması sahəsində kompleks tədbirlər həyata keçirilmiş, bütün kateqoriyalardan olan istehlakçıların istifadə etdikləri elektrik enerjisinin dəyərinin rəqəmsal elektron sayğacların göstərişləri əsasında ödənilməsi təmin edilmişdir. Hazırda Naxçıvan şəhərində smartkarttipli sayğacların quraşdırılması davam etdirilir. Artıq mənzillərdə 6500 ədəd belə sayğac qoyulmuşdur. Bu tədbirlər hesabına elektrik enerjisi sərfi azalmış, istifadə olunan elektrik enerjisinin dəyərinin ödənilməsinin yaxşılaşdırılması təmin edilmişdir. 2006-cı ildə elektrik enerjisinin ötürülməsi və paylaşdırılmasında texnoloji itkilər nəzərə alınmaqla istehlakçılara verilmiş elektrik enerjisinin dəyərinin cəmi 48,3 faizi, 2007-ci ildə 68,6 faizi, 2008-ci ildə 97,7 faizi ödənilmişdir. 2009-2014-cü illərdə və 2015-ci ilin ötən dövründə isə 100 faiz ödəmə təmin edilmişdir. Həmçinin texniki itkilərin azaldılması da diqqət mərkəzində saxlanılmışdır. 2010-cu ildə texniki itki 12,7 faiz, 2011-ci ildə 11,3 faiz, 2012-ci ildə 10 faiz, 2013-cü ildə 8,6 faiz, 2014-cü ildə 7 faiz təşkil etmiş, 2015-ci ilin ilk 9 ayı ərzində isə bu göstəricini 6,9 faizə qədər endirmək mümkün olmuşdur. Bu, ölkə üzrə ən yaxşı göstərici hesab edilir.

"Energetiklərin əməyi də yüksək qiymətləndirilmişdir", – deyən Yasin Səfərov vurğulamışdır ki, son illər 1 nəfərə "Azərbaycan Respublikasının Əməkdar mühəndisi", 4 nəfərə "Naxçıvan Muxtar Respublikasının Əməkdar mühəndisi" fəxri adları verilmiş, 17 nəfər "Tərəqqi" medalı, 2 nəfər "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə", 15 nəfər "Rəşadətli əməyə görə" nişanları ilə təltif edilmişdir.

Sonda agentliyin bir qrup əməkdaşı mükafatlandırılmışdır.

Tədbirdə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının direktoru Cəlal Hüseynov, Yüksəkgərginlikli Elektrik Şəbəkəsinin mühəndisi Nəriman Paşayev çıxış edərək göstərilən dövlət qayğısına görə minnətdarlıqlarını bildirmişlər.

**Xəbərlər şöbəsi**

## Muxtar respublika iqtisadiyyatının inkişafında bank sektorunun mühüm rolu vardır

***İqtisadi artımın əldə olunmasında iqtisadi sahələrə kredit dəstəyi mühüm rol oynayır. Məhz bu mexanizm bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın bütün sahələrinin bərabər inkişaf səviyyəsini təmin edir və son nəticədə, cəmiyyətin bütün təbəqələrinin ehtiyac və tələbatlarını ödəyə bilən bir iqtisadi sistemin formalaşmasına vasitəçi olur. Pul-kredit sisteminin köməyi ilə çoxşaxəli iqtisadiyyatın formalaşdırılması mümkün olur ki, burada da kredit qoyuluşlarının sahələr üzrə paylanılmasının effektiv təsiri var.***

Verilmiş kreditlər əsaslandırılmış istiqamətdə olduqda və onlar real iqtisadiyyatın tələblərinə uyğun istifadə edildikdə istənilən sahə üzrə öz müsbət səmərəsini verir.

Bu gün muxtar respublikamızın blokada şəraitində olması və bununla əlaqədar məhdud kommunikasiya imkanları burada yerli imkanlar hesabına daha çox məhsul və xidmətlərin istehsalını şərtləndirir. Muxtar respublika iqtisadiyyatının inkişafında Naxçıvanda fəaliyyət göstərən bank sektorunun mühüm rolu vardır.

2015-ci ilin 1 oktyabr tarixinə muxtar respublika iqtisadiyyatına 124 milyon 330 min manatlıq kredit qoyuluşu həyata keçirilmişdir. Bu, ötən ilin müvafiq dövründən 26 milyon 238 min manat çoxdur. Kredit qoyuluşu, əsasən, kiçik və orta sahibkarlığın, kənd təsərrüfatının və iqtisadiyyatın digər sahələrinin inkişafına yönəldilmişdir ki, bu da kənd təsərrüfatının inkişafına, yerli sənaye və istehlak malları istehsalının həcminin artmasına, yeni iş yerlərinin açılmasına, rəqabətədavamlı daxili bazarın formalaşmasına təkan vermişdir.

2015-ci ilin yanvar-sentyabr ayları ərzində kredit təşkilatları tərəfindən muxtar respublika iqtisadiyyatına ötən ilin müvafiq dövrü ilə müqayisədə 18 milyon 204 min manat artımla 59 milyon 840 min manat həcmində kredit qoyulmuşdur. Verilmiş kreditlərin 20 milyon 838 min manatı qısamüddətli, 39 milyon 2 min manatı isə uzunmüddətli kreditlərdir.

Muxtar respublikamızda sahibkarlığın inkişafına göstərilən diqqət kredit qoyuluşlarının sahələr üzrə bölgüsündə də özünü göstərir. Belə ki, 2015-ci ilin ilk doqquz ayı ərzində muxtar respublikada fəaliyyət göstərən müvəkkil kredit təşkilatları tərəfindən sahibkarlığın inkişafı məqsədilə verilmiş kreditlər cəmi kreditlərin 72 faizini təşkil etmiş, sahibkarlığın inkişafı üçün 42 milyon 812 min manat kredit verilmişdir. Bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 17 milyon 178 min manat artmışdır. 2014-cü ilin ilk doqquz ayı ərzində sahibkarlıq fəaliyyətinin genişləndirilməsi məqsədilə verilmiş kreditlərin həcmi 25 milyon 634 min manat idi.

Cari ilin doqquz ayı ərzində sahibkarlığın inkişafı məqsədilə verilmiş kreditlərin 9 milyon 799 min manatı Sahibkarlığa Kömək Fondunun vəsaitləri hesabına, 33 milyon 13 min manatı isə bankların öz vəsaiti hesabına təmin edilmişdir. Ötən ilin eyni dövrü ilə müqayisədə hər iki mənbə hesabına verilmiş kreditlərin həcmində 17 milyon 178 min manat artım müşahidə olunmuşdur. Kənd təsərrüfatı ilə məşğul olan sahibkarların maliyyələşdirilməsi əsas diqqət mərkəzində saxlanılmış və bu məqsədlə 17 milyon 19 min manat kredit resursu cəlb edilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 807 min manat çoxdur. Sənaye sahəsində fəaliyyət göstərən sahibkarlara verilmiş kreditlərin həcmi isə 14 milyon 188 min manat təşkil etmişdir. Bu sahədə verilmiş kreditlərin həcmində ötən ilin eyni dövrü ilə müqayisədə 11 milyon 930 min manat artıma nail olunmuşdur. Tikinti sahəsinə 557 min manat, ticarət sahəsinə 5 milyon 127 min manat kredit verilmişdir. Nəqliyyat, rabitə və informasiya sahələrinə isə 5 milyon 921 min manat həcmində kredit vəsaiti cəlb edilmişdir ki, bu da ötən ilin doqquz ayı ilə müqayisədə 5 milyon 906 min manat çoxdur.

Muxtar respublikada fəaliyyət göstərən kredit təşkilatları tərəfindən əhaliyə kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi ilə əlaqədar 11 milyon 852 min manat kredit verilmişdir.

Azərbaycan Respublikası üzrə 2015-ci il ərzində verilmiş kredit resurslarına tətbiq olunan ən aşağı faiz dərəcələrini ölkənin iqtisadi regionları arasında ənənəyə sadiq qalaraq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar təklif etmişdir. Belə ki, 1 sentyabr tarixinə Naxçıvan Muxtar Respublikasında verilmiş kreditlər üzrə orta illik faiz dərəcəsi 13,8 faiz olmuşdur.

Faiz dərəcələrinə müvafiq artan kredit portfelində isə Azərbaycan Respublikası üzrə cəmi vaxtı keçmiş 1 milyard 333 milyon 600 min manat kredit borclarının 0,9 faizi Naxçıvan Muxtar Respublikası üzrə verilən vaxtı keçmiş kredit borclarının payına düşür.

Gənclərin mənzilə olan tələbatlarının ödənilməsi məqsədilə verilmiş ipoteka kreditlərinin həcmi isə 5 milyon 177 min manat təşkil etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3 milyon 199 min manat çoxdur.

2015-ci ilin yanvar-sentyabr ayları ərzində muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 7 milyon 434 min manat, o cümlədən xarici valyuta ilə 3 milyon 570 min manat təşkil edir. Banklara qoyulan əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 245 min manat artmışdır.

Muxtar respublikamızda bank sektorunun fəaliyyəti genişləndikcə əhalinin bank xidmətlərinə olan marağı artır və daha geniş xidmət şəbəkəsindən yararlanmağa başlayır. Və nəticə etibarilə sakinlər banklara daha çox etibar edirlər. Banklar tərəfindən xidmət olunan müştərilərin sayının artmasına səbəb olan amillərdən ən əsası isə onlar tərəfindən təklif edilən xidmətlərin keyfiyyətinin ilbəil daha müasir standartlara cavab verməsidir.

Banklar tərəfindən 2015-ci ilin 1 oktyabr tarixinə 2294 hüquqi, 44062 fiziki şəxs olmaqla, 46356 müştəriyə xidmət göstərilmişdir. Xidmət olunan hesabların 41817-si işlək hesab olmuşdur ki, onların 1362-si hüquqi, 40455-i fiziki şəxsdir.

2015-ci ilin yanvar-sentyabr ayları ərzində 49 hüquqi, 8077 fiziki şəxs olmaqla, 8126 müştəriyə yeni bank hesabı açılmışdır. Açılmış bank hesablarının 8072-si fəaliyyət göstərir ki, onların 49-u hüquqi, 8023-ü fiziki şəxsdir.

"Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması üzrə Tədbirlər Planı"na uyğun olaraq, nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, innovativ ödəniş alətlərindən və xidmətlərindən istifadənin kütləvi hal alması və elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilmiş, dövlət təşkilatlarında əhaliyə göstərilən xidmətlər üzrə rüsum və xidmət haqlarının nağdsız ödəniş alətləri vasitəsilə ödənilməsi imkanları artırılmışdır.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının iştirakı ilə ticarət, iaşə və digər xidmət müəssisələrində quraşdırılmış POS-terminallardan müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılmasının monitorinqi keçirilmiş, nağdsız əməliyyat aparmayan mal satan və xidmət göstərən sahibkarlarla maarifləndirici görüşlər təşkil edilmiş, müvafiq tövsiyələr verilmişdir. Tədbirlər planında nəzərdə tutulmuş işlərin icrasının nəticələrini cəmiyyətə çatdırmaq məqsədilə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən "Nağdsız ödənişlər: mövcud vəziyyət, inkişaf perspektivləri" adlı jurnal nəşr edilmişdir. Jurnalda görülmüş işlərlə bərabər, nağdsız ödənişlərlə bağlı ictimaiyyəti maraqlandıran bir çox mövzulara toxunulmuş və muxtar respublikanın bütün rayonlarının bu sahədə apardıqları fəaliyyətin nəticələri ayrıayrılıqda təhlil edilmişdir. Jurnalda həm bank işinin təhlili ilə məşğul olan iqtisadçılar üçün, həm də bu sahəyə marağı olan bütün vətəndaşlar üçün məqalələr öz əksini tapmışdır.

2015-ci ilin yanvar-sentyabr ayları ərzində POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 milyon 16 min manat artaraq 12 milyon 498 min manat olmuşdur.

2015-ci ildə qarşıya qoyulmuş əsas hədəflərimizdən biri də Naxçıvan şəhərində sərnişindaşımada gediş haqlarının nağdsız ödəniş alətləri vasitəsilə ödənilməsi imkanının yaradılmasından ibarətdir.

Ödəniş sistemlərinin inkişaf etdirilməsi, iqtisadi fəaliyyət göstərən şəxslərin və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi, dövriyyədə olan nağd pul kütləsinin nağdsız dövriyyə ilə əvəz edilməsi, ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılması üçün POS-terminalların quraşdırılması daim diqqət mərkəzində saxlanılmış, 1 oktyabr 2015-ci il tarixə onların sayı 1019 ədəd olmaqla keçən ilin müvafiq dövrü ilə müqayisədə 202 ədəd artmışdır.

Muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartlarının sayı ötən ilin müvafiq dövründə 198 min 747 ədəd təşkil edirdisə, hazırda elektron ödəniş kartlarının ümumi sayı 217 min 482 ədədə çatmış və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 18 min 735 ədəd artmışdır. Bu gün artıq muxtar respublika sakinlərinin hər iki nəfərdən biri ödəniş kartı ilə təmin olunmuşdur. Ancaq bununla bərabər vətəndaşların, xüsusilə kənd yerlərində əməkhaqqı, pensiya və müavinətlərin tamamilə ödəniş kartları vasitəsilə ödənilməsinin təşkili daim diqqət mərkəzində saxlanılır.

***Muxtar respublikada fəaliyyət göstərən bank qurumları tərəfindən elektron ödəniş məkanının formalaşdırılması, valyuta mübadiləsi əməliyyatlarının qanunvericiliyə və mövcud qaydalara uyğun aparılması, kredit portfelinin keyfiyyətinə nəzarətin gücləndirilməsi, nağdsız hesablaşmaların həcminin artırılması, iqtisadiyyatın real sektoruna, xüsusilə kənd təsərrüfatı və sənayenin inkişafına kreditlərin verilməsi davam etdiriləcəkdir.***

**Tural ŞİRƏLİZADƏ**
***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin aparıcı mütəxəssisi***

***Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı təmin olunub, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsinə dövlət maliyyə dəstəyi göstərilib, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılıb, yeni istehsal və xidmət sahələri, idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən emal və sənaye müəssisələri yaradılıb. Aparılan uğurlu islahatlar nəticəsində sənaye məhsulunun həcmi ilbəil artıb, muxtar respublikada istehsal olunan sənaye məhsulunun 93 faizdən çoxu özəl sektorun payına düşüb.***

## "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətində yeni istehsal sahəsi yaradılır



Son illər yaradılan müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisənin direktoru Əlağdin Allahverdiyevin verdiyi məlumata görə, özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnib. Xammal və hazır məhsulların ağırtonnajlı yük avtomobilləri ilə daşınması üçün daha əlverişli yerdə – Naxçıvan dairəvi avtomobil yolunun kənarında müəssisə üçün 15 min kvadratmetr torpaq sahəsi ayrılıb. 2013-cü ilin may ayından inşaat işlərinə başlanılıb, əraziyə elektrik, qaz, su və kanalizasiya xətləri çəkilib.

İnşaat işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün müəssisəyə təcrübəli mütəxəssislər cəlb olunub, 3 istehsal sahəsi, ayrı-ayrı iş otaqları və sərgi-satış salonu olan inzibati bina, iaşə xidməti göstərilməsi üçün yeməkxana istifadəyə verilib.

Layihəyə uyğun olaraq, laminat-mətbəx dəzgahı, PVC akrilik parlaq panellər və melamin örtüklü plitələr istehsal olunması nəzərdə tutulan müəssisədə artıq laminat-mətbəx dəzgahı və PVC akrilik parlaq panellər istehsalı sahələrində İtaliyanın "Omma" və "Osoma", Almaniyanın "İdm", Türkiyənin "AS Metal" və "Türk makina" şirkətlərinin istehsalı olan və kompüterlə idarəetmə mərkəzi ilə təmin edilən müasir texnoloji avadanlıqlar quraşdırılıb, istehsal prosesi avtomatlaşdırılıb. Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə istehsal prosesi konveyer üsulu ilə təşkil olunub, keyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılıb. Həmçinin müəssisədə havalandırma sistemi qurulub, istehsal prosesi zamanı yaranan tozun və tullantıların kompressorlar vasitəsilə sexdən kənarlaşdırılması və xüsusi bunkerlərə yığılması təmin edilib.

Hər birinin aylıq istehsal gücü 10 min ədəd mebel materialları olan yeni istehsal sahələrində xammal ayrı-ayrı mərhələlərdən keçməklə rəng olaraq 100 çeşiddən çox məhsul istehsal edilir. Əvvəllər ölkəmizdə, o cümlədən muxtar respublikamızda fəaliyyət göstərən mebel istehsalı müəssisələrinə hazır materiallar xarici ölkələrdən idxal olunub əlavə daşınma xərci çəkilirdisə, bu müəssisənin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılıb, istehsal müəssisələri vaxtında və keyfiyyətli mebel materialları ilə təmin olunub.

Mebel istehsalı müəssisələrini yüksəkkeyfiyyətli mebel materialları ilə təmin edən "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətinin məhsullarına artan tələbatın ödənilməsi üçün bir sıra tədbirlər həyata keçirilir. Müəssisədə ağac yonqarları lövhələrinin boyanması sahəsi və anbar binalarının layihəsi hazırlanıb. Layihəyə uyğun olaraq, ağac yonqarları lövhələrinin boyanması sahəsi üçün 1860 kvadratmetr, anbar binasının inşası üçün isə 1645 kvadratmetr torpaq sahəsi ayrılıb, əraziyə kommunikasiya xətləri çəkilib. Cari ilin iyul ayından inşasına başlanılan anbar binasında son tamamlama işləri görülür, ətrafında abadlıq işləri aparılır, asfalt-beton örtük salınır. Yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulan anbar binası xammal və hazır məhsulların müvafiq olunmuş şəraitdə saxlanılmasına və istehsal müəssisələrinə vaxtında göndərilməsinə əlverişli şərait yaradacaq. Hazırda ağac yonqarları lövhələrinin boyanması sahəsi üçün binanın inşasına hazırlıq işləri görülür. Onu da qeyd edək ki, müəssisənin fasiləsiz fəaliyyət göstərməsində mühüm rol oynayan xammal və hazır məhsulların vaxtında daşınması da diqqət mərkəzində saxlanılıb, müəssisə "DAF" markalı ağırtonnajlı yük avtomobilləri ilə təmin olunub.

Yeni istehsal müəssisəsinin fəaliyyətə başlaması daxili bazarı keyfiyyətli məhsullarla təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb. Hazırda müəssisədə 60 nəfər çalışır. Onu da qeyd edək ki, müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması da diqqət mərkəzində saxlanılır, müəssisədə çalışan işçilərin Türkiyə Respublikasında ixtisasartırma kurslarında iştirakı təmin olunur. Bu da imkan verir ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

Gələcəkdə müəssisədə yeni istehsal sahəsinin – melamin örtüklü plitələr istehsalı sahəsinin istifadəyə verilməsi nəzərdə tutulur ki, buraya da mebel avadanlıqları istehsalında qabaqcıl təcrübəyə malik, dünyada məşhur olan Almaniyanın "Wemhoner" şirkətinin avadanlıqları alınıb gətiriləcək və idxal olunan dəzgahlar həmin şirkətin mütəxəssisləri tərəfindən quraşdırılacaqdır. Melamin örtüklü plitələr istehsalı sahəsi istifadəyə veriləndən və müəssisə tam gücü ilə işləyəndən sonra, ümumilikdə, 110 nəfər daimi işlə təmin ediləcək.

*Mebel materialları istehsal edilən bu müəssisə muxtar respublikamızda yeganə müəssisədir. Yeni müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, ölkəmizin digər regionlarında da satışa çıxarılır, gələcəkdə xarici ölkələrə ixrac olunması nəzərdə tutulur.*

**Kərəm HƏSƏNOV**

***XIX əsrin əvvəllərində Azərbaycanın şimal hissəsi çar Rusiyası tərəfindən işğal olunduqdan sonra Azərbaycan xanlıqlarına məxsus olan tarixi dövlətçilik rəmzləri, hakimiyyət simvolları ləğv edildi. Buna baxmayaraq, xalqın tarixi yaddaşında ənənələr qaldığı üçün 1918-ci ildə Azərbaycanın müstəqilliyi elan olunduqdan sonra tarixi materialların toplanması və öyrənilməsi, dövlətçiliyin simvol və atributlarının bərpasına başlandı. Üçrəngli bayraq dövlət atributu kimi qəbul olundu. Dövlətçilik simvollarının bərpası tarixi hadisənin zəruriliyi kimi kütlənin şüuruna yüksək mənəviyyat, vətənpərvərlik, Vətənlə fəxr hissinin qayıdışına kömək etdi. Lakin 1920-ci ildə Azərbaycanın Sovet Rusiyası tərəfindən işğal olunması bu prosesi dayandırdı.***

# Naxçıvan xanlığının yeni aşkar olunmuş dövlət və döyüş bayraqları

## *Azərbaycanın tarixi bayraqları ölkəmizdə dövlətçilik ənənələrinin dərin köklərə malik olduğunu bir daha göstərir*



**Pərvin GÖZƏLOV**

*Tarix üzrə fəlsəfə doktoru, bayraqşünaslıq və geraldika üzrə mütəxəssis, "Qəsr" Milli Dəyərlərin Qorunması İctimai Birliyinin sədr müavini*

Bolşeviklərin hakimiyyətə gəlişi ilə Azərbaycanın özünəməxsus dövlət rəmzləri Sovet Rusiyasının simvollarının əksi olan qondarma rəmzlərlə əvəz olunaraq ləğv edildi. Yalnız 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyi elan olunduqdan sonra tarixi dövlətçilik rəmzlərinin bərpasına yenidən başlanıldı.

1990-cı il 17 noyabr tarixində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü nəticəsində üçrəngli Azərbaycan bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət rəmzi statusunu aldı.

Son zamanlar Azərbaycan elmində əhəmiyyət kəsb edən və köməkçi tarixi fənlər arasında aparıcı yerlərdən birini bayraqlar haqqında elm – veksillologiya tutur.

Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində 2015-ci ilin may ayının 10-dan 30-dək Dövlət Ermitaj Muzeyində və Artilleriya, Mühəndis Qoşunları və Rabitə Qoşunları Hərb-Tarixi Muzeyinin bayraq fondlarında və arxivlərində elmi-tədqiqat aparmışam. Elmi araşdırma nəticəsində bayraq fondlarında Azərbaycanın Naxçıvan xanlığına məxsus olmuş iki bayrağını aşkar etdim.

Türkmənçay müqaviləsindən sonra rusların tabeliyinə keçmiş naxçıvanlılardan ibarət Kəngərli süvari dəstəsinin fəxri və döyüş bayrağı, həmçinin Naxçıvan bəy taqımının döyüş bayrağı mövcud idi. Həmin bayraqlar rus-türk müharibəsi ərəfəsində azərbaycanlılardan ibarət atlı müsəlman alaylarına təqdim olunmuşdur. Kəngərli süvari dəstəsinin döyüş və fəxri bayraqlarının üzərində Rusiyanın dövlət gerbi, ikibaşlı qartalın təsviri var. Naxçıvan bəy drujinasının döyüş bayrağının üz tərəfində yuxarıda qeyd olunan ikibaşlı qartal təsvir olunur, arxa tərəfində isə aypara rəmzi əks olunur. Bu günə kimi yalnız sözügedən bayraqlar Naxçıvana aid tarixi bayraqlar kimi təqdim edilirdi. Ona görə də Naxçıvan xanlığının bayraqlarını axtarıb üzə çıxarmaq həm bir xanlığı "bayraqsız" qoymamaqla yanaşı, həm də Azərbaycanın xanlıqlar dövrü dövlət rəmzlərinin müəyyən edilməsini tamamlamaq baxımından da əhəmiyyətli işdir. Aşkar olunmuş bayraqlar Azərbaycanın dövlətçilik ənənələrinin, rəmzlərinin tarixi köklərinin əyani sübutudur! Bu istiqamətdə elmi tədqiqatların aparılması, həmçinin Naxçıvan xanlığının bayrağının aşkar edilməsi zəruriyyəti 2010-cu ildə nəşr olunmuş "Azərbaycan xanlıqlarının bayraqları dövlətçilik tarixinin öyrənilməsində mənbə kimi" adlı monoqrafiyamda qeyd edilmişdi.

1809-1810-cu illərdə Abbasabad qalası tikilmişdir və qalada sərbaz alayı yaradılmışdı, qalanın müdafiəsi üçün 4000 sərbaz və 500 nəfərlik süvari alayı təşkil edilmişdi. Sərbaz alayının başçılarından biri Ehsan xan Kəngərli olub. 1812-ci ilin 19-20 oktyabr günlərində İran şahzadəsi Abbas Mirzənin müttəfiqi olan Kəlbəli xanın oğlu Şeyxəli bəy Aslandüz savaşında rus ordusuna qarşı döyüşdə iştirak etmiş və məğlubiyyət nəticəsində əsir düşmüşdü.

Sankt-Peterburq şəhərində Dövlət Ermitaj Muzeyinin bayraq fondunda və arxivində tərəfimdən aparılmış elmi-tədqiqat nəticəsində Naxçıvan xanlığının birinci bayrağı tapılmışdır. Belə ki, tapılan Naxçıvan bayrağı 1812-ci ilin 19-20 oktyabrında Aslandüz döyüşündə general-mayor Pyotr Kotlyarevski tərəfindən qənimət kimi götürülmüşdür. Dövlət Ermitaj Muzeyinin arxiv sənədlərində qeyd olunan bayraq "1812-1813-1814-cü il döyüşlərinin qənimətləri" kimi göstərilir.

Yeni aşkar edilmiş Naxçıvan xanlığının bayrağı dördkünc formada olaraq, uzunluğu 145 santimetr, eni 159 santimetrdir. Moruğu



rəngli bayrağın yuxarı sağ tərəfində yerləşən mavi rəngli lövhəcikdə "Bismillah", bayrağın sol tərəfində "Qurani-Kərim"dən 48-ci əl-Fəth surəsinin bir hissəsi yazılıb: "Həqiqətən, biz sənə açıq-aydın qələbə verdik". Bayrağın aşağı hissəsində "Qurani-Kərim"dən 2-ci əl-Bəqərə surəsinin bir hissəsi yazılıb. Sağda ərəb qrafikası ilə "Ey rəbbimiz bizə səbir ver, bizi sabit et", sol tərəfdə isə "Kafirə və qövmeyə qarşı bizə kömək et" yazıları vardır. Bayrağın orta hissəsində açıq-sarı rəngli romb parça tikilib, üzərində sarı rəngdə aslan və Günəş, şiri-xurşid rəmzi təsvir edilib. İrəvan xanlığının bayrağından fərqli olaraq, burada aslanın üzü sağ tərəfə duraraq, başı frontal istiqamətdə göstərilir. Aslanın sol pəncəsində qılınc təsvir edilib. Bayraq torbacığı sol tərəfdən tikilib. Bayraq ucluğu ələm formasındadır. Ucluğun üzərinə ucları



qotazlı ağ rəngdə iki lent bərkidilib. Naxçıvan xanlığının bayrağının İrəvan xanlığının bayraq rəmzlərinə yaxın olması heç də təsadüfi deyildi. Tarixdən məlum olduğu kimi, bu xanlıqlar çox vaxt vahid mövqedən çıxış etmiş, hətta idarəetmədə ortaq prinsipləri qorumuşlar. Bu bayraq Aslandüz döyüşündə Abbas Mirzə tərəfindən Naxçıvan xanlığına öz tərəfdarlarını fərqləndirmək, müttəfiqləri olduğunu bəyan etmək üçün verilmiş döyüş bayrağıdır.

Tarixdən məlum olduğu kimi, rus ordusu 1827-ci ilin may ayında İrəvan qalasını tam mühasirəyə alaraq general İ.Paskeviçin komandanlığı altında olan hissələr fasilə edərək Naxçıvan xanlığına yürüşə başlamışdılar. Rus qoşunları altı günə Naxçıvana çatdılar və Naxçıvan qalası yaxınlığında Həsən xanın və Nağı xanın komandanlığı altında olan süvari dəstə ilə knyaz Eristovun komandanlıq etdiyi rus ordusu arasında döyüş baş verdi. Rus ordusu qarşı tərəfi məğlub edərək 1827-ci il iyunun 26-da Naxçıvana daxil oldu.

Elmi araşdırmalar nəticəsində aşkar etdiyim ikinci bayraq Naxçıvan xanlığının dövlət bayrağı 1827-ci ildə xanlığın işğalı zamanı general İ.Paskeviç tərəfindən qənimət kimi götürülmüşdür və bu günə qədər müxtəlif xarici muzeylərin fondlarında "XVIII-XIX əsr müsəlman bayrağı" kimi saxlanılır. Aşkar olunmuş Naxçıvan xanlığının bayrağı dördkünc formada, eni 144 santimetr, uzunluğu 178 santimetrdir. Qızılı ipəkdən hazırlanmış



bayraq bir-birinə üfüqi şəkildə tikilmiş üç parçadan ibarətdir. Bayrağın iki hissəsi bir ölçüdə, biri isə nisbətən ensizdir. Bütün bayraqlarda olduğu kimi, bu bayraqda da sağ tərəfdən bayraq torbacığı tikilib. Bayrağın üzərində ərəb qrafikası ilə "Qurani-Kərim"dən 48-ci əl-Fəth ayəsinin bir hissəsi və dini



şüarlarla yanaşı, 6 (altı) səkkizguşəli ulduz və nəbati elementlər əks edilir. Üst zolağın üzərində ərəb qrafikası ilə "Qurani-Kərim"dən 48-ci əl-Fəth surəsinin bir hissəsi "Allahdan kömək qələbə yaxındır. Məhəmmədən möminlərə müjdə" yazısı qızılı saplarla bayrağın üzərinə həkk edilib. Zolağın sol tərəfində digər xanlıq bayraqlarında əks olunmuş zanbaq gülü burada da parçadan tikilib. Sağ tərəfdə biri digərinin içərisində aralarında dairəvi sədd olan iki səkkizguşəli ulduz qızılı saplarla bayraqda yerləşdirilib. Qeyd etmək lazımdır ki, əks edilmiş ulduz Möminə xatın türbəsinin üzərindəki ulduzların üslubunda tərtib edilib. Buradakı ulduzların daxilində həndəsi elementlər açıq-aşkar görünür. Nəinki Azərbaycan xanlıqlarının bayraqları üzərində, XVIII-XIX əsr Şərq dövlətlərinin bayraqlarında da buna oxşar elementə rast gəlinməyib. Orta zolaqda açıq-qızılı parçadan iki tiyəli tutacağı əjdaha başı ilə yekunlaşan Həzrəti Əlinin qılıncı (şəmşir) təsvir olunub. Qılıncın üst hissəsində "Əlidən başqa döyüşçü yoxdur" yazısı əks edilir. Yazının qarşısında insan əli formasında (xəmsə), yaxud ələm şəklində açıq-qızılı parça tikilib. Qılıncın alt hissəsində isə "Zülfüqardan başqa qılınc yoxdur" yazısı var. Yazının qarşısında və hər iki tərəfində səkkizguşəli ulduz olan, ucları sol tərəfə istiqamətlənən aypara və ulduz, aypara təsvirləri əks olunub. Hər iki yazının axırında isə yuxarıda göstərilən səkkizguşəli ulduz və zanbaq gülü tikilib. Ayparanın sağ tərəfində "Əli" adı iki dəfə güzgü əksi kimi təsvir edilib, yazının üst hissəsinin mərkəzində minarə yerləşdirilib. Əli sözünün solunda "Hüseyn", sağında isə "Həsən" adları yazılıb. Sonuncu zolağın sağ tərəfində iç-içə, arasında dairəvi sədd olan səkkizguşəli sonuncu ulduz tikilmişdir.

Bayrağın təsviri təhlil edilərək belə qənaətə gəlinir ki, bayrağın tərtibatı, üzərində



əks edilən yazılar, istifadə olunan rəmzlər və rənglər, bayrağa sahib olan Naxçıvan xanlığının siyasi-ideoloji, dini və tarixi-mədəni ənənələrini əks etdirir.

Milli Azərbaycan Tarixi Muzeyində ölkəmizdə yeganə "tarixi bayraqlar" kolleksiyası qorunur. Bayraqlarda olan ərəbdilli yazılar Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı tərəfindən oxunmuşdur. Kolleksiyadakı bayraqların heç birinin üzərində mənsub olduğu xanlıqların adları əks olunmamışdır, bəzilərinin tərtibatında yalnız rəmzi elementlər istifadə edilmişdir.

Sankt-Peterburq Artilleriya Muzeyində aşkar edilmiş bayraq Naxçıvan xanlığının dövlət bayrağı kimi istifadə edilmiş və bayrağın yaxşı vəziyyətdə olması onu göstərir ki, bayraq yalnız rəsmi mərasimlərdə istifadə edilmiş və dövlət bayrağına layiq tərzdə saray daxilində qorunmuşdur.

Bayrağın üzərindəki səkkizguşəli ulduz və ayparanın əks olunması sübut edir ki, Azərbaycan Respublikasının dövlət bayrağındakı ay-ulduz 1918-ci il Azərbaycan Xalq Cümhuriyyətindən öncə Azərbaycan tarixi bayraqlarında milli rəmz kimi istifadə edilib və Azərbaycançılığı, milli məfkurəni, dövlətçilik ənənələrini əks etdirən mühüm əlamətdir.

Bayraqların təsvirlərini təhlil edərək belə qənaətə gəlinir ki, təqdim olunan hər iki bayrağın tərtibatı, üzərində əks edilən yazılar, istifadə olunan rəmzlər və rənglər, bayrağa sahib olan Naxçıvan xanlığının siyasi, ideoloji, dini və tarixi mədəni ənənələrini əks etdirir. Azərbaycanın tarixi bayraqları ölkəmizdə dövlətçilik ənənələrinin dərin köklərə malik olduğunu bir daha göstərir.

**"Vətəndaş cəmiyyəti" jurnalı, 2015-ci il, № 9**

*Əziz Şərif – 120*

# Xalqa, ədəbiyyata xidmət edən istedadlı alim, vətənpərvər ziyalı



*Qədim və zəngin tarixə malik Naxçıvan Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bu torpaq Azərbaycanın çoxəsrlik mədəniyyət ocaqlarından biri olmuşdur. Burada yaranan ədəbi mühit Azərbaycan ədəbiyyatına həmişə layiqli töhfələr bəxş etmiş və həmin proses bu gün də davam edir.*

Akademik İsa Həbibbəyli yazır: "...Naxçıvan Azərbaycanın qədim şəhərlərindən biri olmaqla yanaşı, həm də ilk mədəniyyət mərkəzlərindəndir. Burada zamana müvafiq maarifçi ideyalar geniş intişar tapmış, qiymətli ədəbiyyat, memarlıq, musiqi əsərləri yaradılmış, elmin müxtəlif sahələri təşəkkül etmişdir".

Nəcməddin Əhməd Naxçıvani, Hinduşah Naxçıvani, Nəsirəddin Tusi, Heyran xanım, Qönçəbəyim, M.T.Sidqi və başqaları bu diyara şöhrət qazandırmışlar. Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Hüseyn Cavid kimi tanınmış söz ustaları, fenomen bilik sahibi, diplomat Məhəmməd ağa Şahtaxtlı, rəssam Bəhruz Kəngərli və başqa tanınmış şəxsiyyətlər Naxçıvan mədəni mühitinin görkəmli yetirmələridir.

XX əsrin əvvəllərində ədəbi mühitdə sözünü deyən ziyalılardan biri də Əziz Şərifdir.

Əziz Şərif 1895-ci il mart ayının 28-də Naxçıvan şəhərində anadan olmuşdur.

Bu dövrdə qədim Naxçıvanda Cəlil Məmmədquluzadə ilə yanaşı, Məhəmməd Tağı Sidqi, Eynəli bəy Sultanov, Əbülqasım Sultanov, Mirzə Cəlil Şürbi kimi maarif və mədəniyyət nümayəndələri fəaliyyət göstərmişlər. Əziz Şərifin atası Qurbanəli Şərifzadə də dövrünün vətənpərvər, maarifçı ziyalılarından biri olmuşdur. Qurbanəli Şərifzadə bu ziyalılarla dostluq etmiş, məktublaşmış, dövrünün bütün mühüm hadisələri ilə dərindən maraqlanmışdır.

Əziz Şərif ilk təhsilini Naxçıvanda ustad müəllim və şair Məhəmməd Tağı Sidqinin "Məktəbi-tərbiyə"sində almış, sonralar təhsilini Tiflisdə Cəlil Məmmədquluzadənin yanında davam etdirmişdir.

Görkəmli ziyalı XX əsr ədəbiyyatımızın bir çox hadisələrinin şahidi və yaxından iştirakçılarından biri olmuşdur. Əziz Şərif Cəlil Məmmədquluzadənin ailəsində ən dəyərli qonaq kimi qəbul olunmuş, Mirzə Cəlil onun Tiflis gimnaziyasına hazırlığında yaxından iştirak etmişdir. Əziz Şərif dövrün satirik şairi Sabiri yaxından tanımaq və onun yazdığı şeirləri öz dilindən dinləmək şərəfinə nail olmuşdur.

Əziz Şərifin yaradıcılığını təhlil edərkən aydın olur ki, gənc yaşlarından dövrünün ziyalıları ilə münasibəti onu daha mükəmməl bir tədqiqatçı olmağa yönləndirmişdir.

XX əsrin ilk onilliyindən yaradıcılığa başlayan görkəmli ədəbiyyatşünas-alim, tərcüməçi Əziz Şərif 20-ci illərdə Tiflisdə yaşamış, 30-cu illərin ortalarında Bakıda, 40-cı illərin sonlarından Moskvada işləmiş, uzun illər Moskva Dövlət Universitetinin professoru olmuşdur. Ə.Şərif 1943-cü ildə Moskvada M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunu bitirmiş, 1946-cı ildə "Ə.Haqverdiyevin dramaturgiyası" mövzusunda namizədlik, 1956-cı ildə "C.Məmmədquluzadənin həyatı və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Görkəmli alim Azərbaycan ədəbiyyatı və teatrı ilə bağlı məqalələr yazmış və araşdırmalar aparmışdır.

Onun ədəbiyyatşünaslıqda mühüm məsələ olan üsul barədə "Ədəbiyyat tariximizdə üsul" və "Sənət və ədəbiyyat" məqalələri polemik ruhu ilə diqqəti cəlb edir.

M.F.Axundzadə, C.Məmmədquluzadə, Sabir yaradıcılığı onun ən çox məşğul olduğu mövzular olmuşdur. Alim "Dan ulduzu" jurnalının 1927-ci il 12-ci sayında M.F.Axundzadə haqqında məqalə ilə çıxış etmişdir. Onun M.F.Axundzadə ilə bağlı ən böyük uğuru böyük sənətkarın A.Puşkinin ölümü münasibətilə yazdığı "Şərq poeması"nın fars dilində əlyazmasının orijinalını tapmasıdır. Bununla əlaqədar onun məqaləsi "Ədəbiyyat qəzeti"nin 1936-cı il 21 dekabr tarixli sayında çap olunmuşdur. "Sabir və "Molla Nəsrəddin" məqaləsi (1937), "Sabir bu gün" kitabçası (1942), "Molla Nəsrəddin" jurnalı haqqında "40 il bundan əvvəl" (1946) məqaləsi onun öz mövzularına bağlılığını təsdiq edir.

İnsanın ucalığı, aliliyi o zaman daha mükəmməl olur ki, o, olduğu yerdən asılı olmayaraq, həmişə ana vətəninə, torpağına bağlı olur. Bu sözləri Əziz Şərifə şamil etmək olar. Çünki görkəmli alim doğulduğu Naxçıvana bağlı bir ziyalı olmuşdur. Gərgin iş prosesində bu torpağı unutmamış, fürsət olduqca vətəninə gəlmiş, bu mühitlə dərindən maraqlanaraq görmədiyi yerləri ziyarət etmişdir.

Hər zaman Naxçıvanın tarixi, ozamankı vəziyyəti, ictimai-ədəbi həyatı, maarif və mədəniyyətin inkişafı, bu sahədəki çətinliklər, Naxçıvan ziyalılarının və maarifpərvərlərinin böyük bir dəstəsi haqqında dediyi qiymətli fikirləri bu gün də bizim üçün çox əhəmiyyətlidir. Əliqulu Qəmküsar, Rzaqulu Nəcəfov, Rza Təhmasib, Hüseyn Cavid, Müşkünaz xanım və başqaları ilə bağlı xatirələr, söylədiyi qiymətli fikirlər, yazdığı məqalələr o dövrün mədəni inkişafının mənzərəsini aydın şəkildə ifadə edir. Bu qiymətli yazılar gənc tədqiqatçılar, bu dövrlə bağlı araşdırma aparan alimlər üçün dəyərli bir mənbədir.

Əziz Şərif Naxçıvanda baş verən ədəbi prosesi dərindən izləmiş, zaman-zaman yazılarında bu mühit haqqında orijinal fikirlər söyləmişdir. O, yazılarının birində ədəbi proses haqqında fikirlərini belə ifadə etmişdir: "1921-ci ilin payız səhərində "Cavanlar həyatı", bir az sonra "Füqarə səsi" və "Şərq qapısı" adı ilə buraxılan qəzet doğma diyarımızın yüksəliş salnaməsidir... Vilayət qəzetimiz Şərqin qapısından öz əməyi və yaradıcılığı ilə qədim Naxçıvana cavanlıq verən qadir insanların xitabət kürsüsü, qazanılan qələbələrin işıqlı güzgüsüdür".

Müxtəlif dövrlərdə Əziz Şərifin Naxçıvan ədəbi mühiti, Naxçıvanın gənc yazıçı və alimləri, mədəni irsi ilə bağlı məqalələri çap olunmuşdur.

Görkəmli alim qəzetin 10 oktyabr 1942-ci il tarixli sayında "Naxçıvanlı gənc şairlər Böyük Vətən müharibəsi günlərində" adlı məqalə çap etdirir, yerli şairlərdən Hüseyn Əzim, Hacı Əsgərov, Əsgər Səfərov, müəllim Əli Məmmədovun yaradıcılığındakı vətənpərvərlik motivlərini qiymətləndirir.

Əziz Şərifin məqalələri və ayrı-ayrı xatirə kitabları XX əsr Naxçıvan ədəbi mühitinin araşdırılması işində əvəzsiz rol oynamışdır.

Görkəmli ədəbiyyatşünas vətəndən çox uzaq məsafədə yaşamağına baxmayaraq, tez-tez Naxçıvana gəlmiş, ziyalılarla, tələbələrlə görüşmüş, saatlarla mühazirələr oxumuş, öz dəyərli məsləhətləri ilə buradakı ədəbi mühitə töhfələr vermişdir.

Əziz Şərifin şəxsi söhbətlərində də, məktublarında da Naxçıvan torpağına sonsuz məhəbbət açıq hiss olunurdu. O, məktublarında tez-tez "balaca, amma çox əziz vətənim" yazırdı.

Əziz Şərifin əziz vətənində, doğma torpağında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə onun 120 illik yubiley tədbirinin keçirilməsi onu göstərir ki, Naxçıvan torpağı da bu məşhur övladını unutmamış, həmişə bu mühitin yetirməsi olan Əziz Şəriflə qürur duymuşdur.

**Nigar SADIQZADƏ**
***filologiya üzrə fəlsəfə doktoru***

## *Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi*

*2015/2016-cı tədris ili üçün fəlsəfə doktoru və elmlər doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul elan edir*

**Fəlsəfə doktoru hazırlığı üzrə dissertanturaya büdcə hesabına, qiyabi şöbəyə**

*Azərbaycan ədəbiyyatı (5716.01) – 1 yer*
*Vətən tarixi (5503.02) – 1 yer*
*Müəssisələrin təşkili və idarə olunması (5311.01) – 1 yer.*

Doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul edilirlər.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi isə 4 ildir. Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- *ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərliyinin adına)*
- *kadrların şəxsi qeydiyyat vərəqi*
- *tərcümeyi-hal*
- *iş yerindən xasiyyətnamə*
- *3 ədəd fotoşəkil (3x4 sm ölçüdə)*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə)*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti.*

**Elmlər doktoru hazırlığı üzrə doktoranturaya büdcə hesabına, qiyabi şöbəyə**

*Arxeologiya (5505.02) – 1 yer*
*Vətən tarixi (5503.02) – 1 yer*
*Qeyri-üzvi kimya (2303.01) – 1 yer.*

**Elmlər doktoru hazırlığı üzrə dissertanturaya büdcə hesabına, qiyabi şöbəyə**

*Vətən tarixi (5503.02) – 1 yer*
*Yarımkeçiricilər fizikası (2220.01) – 1 yer.*

Elmlər doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 4 il, qiyabi isə 5 ildir. Elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- *ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərliyinin adına)*
- *kadrların şəxsi qeydiyyat vərəqi*
- *tərcümeyi-hal*
- *3 ədəd fotoşəkil (3x4 sm ölçüdə)*
- *iş yerindən xasiyyətnamə*
- *əmək kitabçasından çıxarış*
- *çap olunmuş elmi işlərin siyahısı*
- *fəlsəfə doktoru və ya elmlər namizədi elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə ali və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və fəlsəfə doktoru (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

Sənədlər 20 oktyabr 2015-ci il tarixdən 5 noyabr 2015-ci il tarixədək aşağıdakı ünvanda qəbul edilir:

**AMEA Naxçıvan Bölməsinin əsas binası, 3-cü mərtəbə, Təhsil və kadrlar şöbəsi.**

***Əlavə məlumat üçün əlaqə telefonu: (036)-544-65-97***

# Naxçıvanda ilk dəfə Beynəlxalq Kulinariya Günü qeyd edilib

Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi 20 oktyabr – Beynəlxalq Kulinariya Gününə həsr edilmiş tədbir keçirib. Tədbiri Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının rəhbəri Gülbuta Babayeva giriş sözü ilə açaraq bildirib ki, Azərbaycan dövləti müstəqilliyini bərpa etdiyi gündən milli kimliyinin qorunması istiqamətində bir sıra mühüm addımlar atmaqdadır. Atılan ilk addımlardan biri də milli mətbəxin qorunmasıdır. 1991-ci il aprelin 23-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Azərbaycan mətbəxinin öyrənilməsi, təbliği üçün Azərbaycan Milli Kulinariya Mərkəzi (AMKM) yaradılıb. 1992-ci ildə Azərbaycan türk dövlətləri və keçmiş SSRİ respublikaları içərisində Ümumdünya Kulinariya Təşkilatı Birliyinə (ÜKTB) ilk qəbul edilən ölkədir. AMKM-nin müstəsna himayədarlığı ilə sonralar Rusiya (1994), Ukrayna və Özbəkistan (2002), Belarus, Serbiya (2006), Türkiyə, Qazaxıstan, Moldova (2008) ÜKTB-yə üzv qəbul ediliblər. Hazırda AMKM bu sahədə Gürcüstana yardım edir. Bu gün Azərbaycan həm də Dünya Ənənəvi Qida Komitəsinə sədrlik edir. 25 il ərzində AMKM-nin güclü təbliğatı sayəsində işğalçı Ermənistan kulinariya sahəsində heç bir tədbirə dəvət edilmir və bu sahə üzrə heç bir dünya təşkilatına üzv qəbul olunmur.

Qeyd olunub ki, Azərbaycan mətbəxinin öyrənilməsi və inkişafı ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra daha geniş vüsət alıb. 1994-cü ilin aprel ayında ümummilli liderimiz Heydər Əliyev Norveçdə keçirilən Dünya Kulinariya Konqresinə məktub-müraciət göndərərək Ümumdünya Kulinariya Təşkilatı Birliyini Azərbaycanla sıx əməkdaşlığa dəvət edib. 1999-cu ildə "Gənclər siyasəti proqramı" çərçivəsində gənc və peşəkar kulinarların olimpiadalarının keçirilməsi barədə görkəmli dövlət xadimi Heydər Əliyev tapşırıq verib.

Ümummilli liderimiz Heydər Əliyevin yolunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev 2011-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasındakı çıxışında ermənilərin Azərbaycanın mətbəx nümunələrini öz adlarına çıxmaq üçün müxtəlif addımlar atmaqlarından danışıb və belə hərəkətlərin yolverilməz olduğunu bəyan edib. Respublika səviyyəsində keçirilən Novruz bayramı tədbirlərində Prezident İlham Əliyev ən çox diqqəti milli mətbəximizin təbliğinə yönəldir.

Naxçıvan Muxtar Respublikasında da milli mətbəxin təbliğinə ciddi fikir verilir. Ali Məclisin Sədri 2009-cu ildə Azərbaycanın regionları arasında ilk dəfə Naxçıvanda "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin yaradılması haqqında Sərəncam imzalayıb.

Tədbirdə "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin direktoru Səyyarə Sadıxova "Azərbaycan kulinariyası" adlı məruzə ilə çıxış edib. O bildirib ki, Azərbaycan mətbəxi milli mədəniyyətimizin mühüm tərkib hissəsidir. Milli mətbəx mədəniyyətimiz coğrafi baxımdan tarixən geniş bir arealda yayılıb, azərbaycanlıların qədimdən yaşadıqları əraziləri əhatə edib.

Qeyd olunub ki, yurdumuzun hər bir regionunun öz adət-ənənələri olduğu kimi, Naxçıvanın da özünəməxsus ləziz yemək növlərindən ibarət mətbəx mədəniyyəti vardır. Burada süfrə mədəniyyəti hər zaman ən yüksək səviyyədə qorunub saxlanılıb, bərəkətin rəmzi kimi süfrəyə böyük ehtiram göstərilib, süfrə estetikası və etikasına son dərəcə dəqiqliklə əməl olunub. Naxçıvan mətbəxinin bu zəngin mənzərəsi, muxtar respublikamızda kulinariya turizminin inkişafı üçün də gözəl zəmin yaradır. Xalq yaradıcılığının ən qədim sahələrindən olan kulinariya mədəniyyətinin sistemli şəkildə öyrənilməsi və inkişaf etdirilməsi, təbliğ olunması və tanıdılması məqsədilə Naxçıvanda yaradılan "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi ötən dövr ərzində qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlməyə səy göstərib və bu gün də öz fəaliyyətini bu istiqamətdə davam etdirir. Bunun üçün mərkəzə hərtərəfli şərait yaradılıb.

Məruzədə milli mətbəx mədəniyyətimizin qorunması üçün İctimai Qida Muzeyinin yaradılması zərurəti diqqət mərkəzinə çəkilərək qeyd olunub ki, Beynəlxalq Kulinariya Günü bu il dünyada 13-cü, Azərbaycanda 9-cu, Naxçıvanda isə ilk dəfədir keçirilir.

Tədbirin sonunda "Azərbaycan mətbəxi" adlı tanıtım filmi nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Kəngərli Əyyub Arif oğlunun adına olan AA-008753 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

* * *

Babək rayonunun Şəkərabad kəndində yaşamış Sadiqov Musa Hüseyn oğlunun adına olan JN-112$^{A}$ inventar nömrəli, 10312048 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 790